BAKI XƏBƏR
8
19 NOYABR 2025
№ 209 (5531)

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Ekologiya və ətraf mühitin mühafizəsi

# Azərbaycan iqlim dəyişmələrinə qarşı mübarizənin yenə dünya modelini yaradır...

**Azərbaycanın iqlim dəyişmələrinə qarşı beynəlxalq müstəvidə fəaliyyəti son illərdə həm siyasi, həm də praktiki səviyyədə diqqət çəkəcək dərəcədə güclənib. Bu rolun formalaşmasının əsas səbəbi ölkənin enerjidən asılı iqtisadiyyata sahib olmasına baxmayaraq, "yaşıl transformasiya", alternativ enerji və regional ekoloji təhlükəsizlik sahələrində təşəbbüslərini qlobal gündəliyə çıxarmaq niyyətidir.**

Azərbaycan özünü həm inkişaf etməkdə olan ölkələrin, həm də enerji istehsalçılarının maraqlarını balanslaşdıran vasitəçi kimi təqdim edir. Azərbaycanın qlobal səviyyədə rolunun ən mühüm mərhələlərindən biri BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasına uyğun olaraq təqdim etdiyi milli töhfələr və öhdəliklərdir.

### Azərbaycan emissiyaları 40% azaltmağı 15 il daha tez öhdəsinə götürür

Yuxarıda qeyd edilənlər kontekstində COP29-un baş danışıqçısı Yalçın Rəfiyev COP30-da Azərbaycanın milli bəyanatı ilə çıxış edib. Yalçın Rəfiyev Azərbaycanın çoxtərəfli əməkdaşlığa sadiqliyini təsdiqləyib və bildirib ki, COP29-da sədrliyin uğurla başa çatmasından sonra da ölkə iqlim təşəbbüslərinin həyata keçirilməsi üçün bütün dövlətlərlə sıx əməkdaşlığı davam etdirəcək. O həmçinin Azərbaycanın iddialı iqlim təşəbbüslərindən də danışıb. Bunlara ölkənin yeni Milli Səviyyədə Müəyyən Edilmiş Töhfələri də daxildir ki, bu, ölkəmiz tərəfindən emissiyaların azaldılması öhdəliklərini 40 % sürətləndirir, yəni 2050-ci il kimi nəzərdə tutulan yekun tarix 2035-ci ilə endirilir.

Bundan əlavə, bu təşəbbüslərə Azərbaycanın Xəzər dənizinin mühafizəsi üzrə daxili, regional və qlobal səyləri daxildir. Baş danışıqçı beynəlxalq ictimaiyyəti bir daha bu həyati əhəmiyyətli resursun qorunması istiqamətində səyləri birləşdirməyə və dəstək verməyə çağırıb. Diplomat qeyd edib ki, ötən il Bakıda keçirilmiş COP29 iqlim sammiti Azərbaycan prezidenti İlham Əliyevin rəhbərliyi altında tarixdə ən məhsuldar COP-lardan biri kimi yadda qalıb. Azərbaycanın ev sahibliyi etdiyi tədbirdə tərəflər arasında mürəkkəb məsələlərə dair konsensus əldə olunub və Paris Sazişinin bütün əsas istiqamətləri üzrə mandatlar uğurla başa çatdırılıb. Yalçın Rəfiyev onu da qeyd edib ki, COP29-da qəbul edilən İqlim Maliyyəsi üzrə Yeni Kollektiv Kəmiyyət Məqsədi inkişaf etməkdə olan ölkələr üçün 2035-ci ilə qədər hər il ən azı 300 milyard ABŞ dolları səfərbər edilməsini nəzərdə tutur. Bu, indiyə qədər BMT çərçivəsində razılaşdırılmış ən böyük iqlim maliyyələşdirilməsi paketidir. Həmçinin, COP29 və COP30 sədrlikləri tərəfindən hazırlanan "Bakıdan Beleme Yol xəritəsi" iqlim maliyyəsinin 2035-ci ilə qədər illik 1,3 trilyon dollara çatdırılması üzrə addımları müəyyənləşdirir. Yalçın Rəfiyev vurğulayıb ki, Azərbaycan iqlim dəyişikliklərinin təzyiqlərinə kifayət qədər açıq ölkədir. Xüsusilə Xəzər dənizinin su səviyyəsinin sürətlə azalması region üçün ciddi ekoloji və iqtisadi təhlükə yaradır. O, bu məsələnin qarşısının alınması üçün beynəlxalq əməkdaşlığın gücləndirilməsini vacib adlandırıb: "Azərbaycan multilateralizmə sadiqdir və biz qlobal prosesin qorunmasına çalışırıq. COP30-da bütün tərəfdaşlarla birlikdə "yaşıl dünya" naminə həmrəyliyimizi davam etdirəcəyik". Bir daha xatırladaq ki, iqlim diplomatiyasında artan rolun ən bariz göstəricilərindən biri Azərbaycanın COP29-a - BMT-nin İqlim Dəyişikliyi Konfransına ev sahibliyi etməsi oldu. Bu addım Azərbaycanın qlobal səviyyədə ekoloji gündəmin fəal iştirakçısına çevrildiyini nümayiş etdirir. COP29-un Bakıda keçirilməsi ölkəyə iqlim maliyyələşdirilməsi məsələsində tərəflər arasında vasitəçi olmaq, inkişaf etməkdə olan ölkələr üçün maliyyə mexanizmlərinin gücləndirilməsi kimi vəzifələri uğurla həll etməyə imkan verib. Bu konfrans çərçivəsində Azərbaycanın əsas prioritetlərindən biri iqlim ədalətinin təmin olunması, kiçik ada dövlətləri və iqlimə daha həssas regionların dəstəklənməsi, həmçinin iqlim risklərinə dayanıqlı iqtisadi modellərin təşviqi oldu. Azərbaycan beynəlxalq müstəvidə həm də yaşıl enerji təşəbbüslərinin regional mərkəzinə çevrilmək yolunda addımlar atır. Xüsusilə Qarabağ və Şərqi Zəngəzurun "yaşıl enerji zonası" kimi elan edilməsi, bu ərazilərdə bərpa olunan enerji mənbələrinin, yeni günəş, külək və su enerjisinin geniş istifadəsi planlaşdırılır. Bu regionu "sıfır emissiya" zonası kimi inkişaf etdirmək məqsədi həm ekoloji, həm də iqtisadi baxımdan ölkənin iqlim strategiyasının mühüm hissəsidir. Bu təşəbbüs beynəlxalq investisiya fondları və enerji şirkətləri tərəfindən dəstəklənir və Azərbaycanın iqlim liderliyi iddiasını gücləndirir.



### Azərbaycan Avropa ilə "yaşıl enerji" ixracatı istiqamətində əməkdaşlığı gücləndirir

Enerji diplomatiyası Azərbaycan üçün iqlim siyasətinin ayrılmaz hissəsidir. Avropanın enerji təhlükəsizliyində mühüm rol oynayan Azərbaycan bir tərəfdən qaz təchizatını artırarkən, digər tərəfdən "yaşıl enerji" ixracatı istiqamətində əməkdaşlığı gücləndirir. Xüsusilə Azərbaycan-Gürcüstan-Rumıniya-Macarıstan xətti üzrə "yaşıl enerji" kabeli layihəsi ölkənin bərpa olunan enerji potensialını Avropaya nəql etməyə imkan verəcək. Bu layihə Azərbaycanın yalnız fosil yanacaq tədarükçüsü kimi deyil, həm də yaşıl enerji tranzit mərkəzi kimi yeni mövqeyini formalaşdırır. Bu yanaşma beynəlxalq tərəfdaşlar tərəfindən iqlim dəyişmələri ilə mübarizəyə töhfə kimi qiymətləndirilir.

Azərbaycan iqlim dəyişikliyinə qarşı mübarizədə su diplomatiyasına da diqqət yetirir. Ölkə su ehtiyatları baxımından məhdud imkanlara malikdir və bu səbəbdən regional əməkdaşlıq zəruridir. Azərbaycan bu kontekstdə Qafqaz və Mərkəzi Asiya ölkələri ilə təcrübə mübadiləsini gücləndirir, sərhədyanı su hövzələrinin qorunması, iqlim risklərinin idarə olunması və su infrastrukturunun modernləşdirilməsi sahələrində beynəlxalq layihələrə qoşulur. Bundan başqa, ölkə bir sıra beynəlxalq təşkilatlar, o cümlədən BMT, Avropa İttifaqı, Dünya Bankı, Asiya İnkişaf Bankı və digər qurumlarla iqlim proqramları çərçivəsində əməkdaşlıq edir. Bu əməkdaşlıq təkcə maliyyə və texniki dəstəklə məhdudlaşmır, Azərbaycan həm də regional iqlim təşəbbüslərinin təşviqi, ekoloji innovasiyalar və rəqəmsal yaşıl texnologiyaların tətbiqində tərəfdaş kimi çıxış edir. Bütün bunlar o deməkdir ki, Azərbaycanın iqlim dəyişmələrinə qarşı beynəlxalq rolunun güclənməsi ölkənin siyasi imicinin yüksəlməsi, enerji strategiyasının diversifikasiyası və regional liderlik ambisiyalarının genişlənməsi ilə səciyyələnir. Bu rol təkcə ekoloji məsuliyyət deyil, həm də strateji üstünlük yaradır. Azərbaycan həm enerji istehsalçısı, həm də "yaşıl keçid" tərəfdarı kimi unikal mövqe tutur.

*Tahir TAĞIYEV*

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyilə çap olunur.*